İCTİMAİ QƏZET ❁ yeniyolqazeti@gmail.com ❁ “იენი იოლი” საზოგადოებრივი გაზეთი ❁ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

30 İYUN 2021-Cİ İL №012 (135)

Səh. 2 TƏŞKİLOTULANMAQ - AZƏR MUSAOĞLU YAZIR

Səh. 3 BİZ KİMİN “ŞİNEL”İNDƏN ÇIXMIŞIQ? - İBRAHİMXƏLİL YAZIR

Səh. 5 MƏN VƏ MƏRYƏM - AFAYƏT AFİQ YAZIR

Səh. 5 AZAD OLMAĞI BACARMAQ - LAMİYƏ HACIYEVA YAZIR

Səh. 6 “QƏDİM TİFLİSİN ƏDƏBİ BOHEMASI” - MİRZƏ MƏMMƏDOĞLUNUN TƏRCÜMƏSİNDƏ

Səh. 7 İKİNCİ MƏRTƏBƏDƏN GÖRÜNƏN ƏL BOYDA DÜNYA - AFİQ MUXTAROĞLU YAZIR

Səh. 7 BİR AİLƏNİN FACİƏSİ - DİLARƏ TƏHMƏZOVA YAZIR

## BAŞ NAZİR: MÜƏLLİMLƏRİN ƏMƏKHAQQI 2200 LARİDƏN ARTIQ OLACAQ



Parlamentdə hesabat təqdim edən zaman Baş nazir İrakli Qaribaşvili müəllimlərin əməkhaqlarının artırılması barədə danışaraq qeyd edib ki, 2030-cu ildə pedaqoqların əməkhaqqı artırılacaq.

*“Növbəti on il ərzində ali təhsil 2 milyard 830 milyon lari, elm sahəsi 2 milyard 104 milyon lari dəyərində maliyyələşdiriləcək. Müəllimlərin əməkhaqqı mərhələli şəkildə artırılacaq və 2030-cu ildə orta səviyyəli şəraitdə işləyən müəllimin aylıq əməkhaqqı 2200 laridən artıq olacaq.*

*Həmçinin demək istəyirəm ki, növbəti illər ərzində ümumtəhsil büdcəsi 2 milyard 230 milyon lari, ali təhsil büdcəsi 270 milyon lari, elm büdcəsi 243 milyon lari olacaq. Peşə təhsilinin büdcəsi isə 554 milyon lariyə çatacaq”*, - deyə Baş nazir bildirib.

## GÜRCÜSTANDA KORONAVİRUS ƏLEYHİNƏ KÜTLƏVİ PEYVƏNDLƏMƏ İYULDAN BAŞLAYACAQ



Gürcüstanda əhalinin koronavirus əleyhinə kütləvi peyvəndlənməsinə iyul ayından başlanılacaq. Bu barədə ölkənin səhiyyə naziri Ekaterine Tikaradze məlumat verib.

Nazir vaksinasiyanın həm Tbilisi, həm də bölgələrdə həyata keçiriləcəyini bildirib.

E.Tikaradzenin sözlərinə görə, bu həftənin sonunda Gürcüstana milyon doza “Sinopharm” və “Sinovac” preparatları çatdırılacaq və gələn həftədən vaksinasiyaya start veriləcək.

## GÜRCÜSTANDA KORONAVİRUS ƏLEYHİNƏ 261652 NƏFƏR PEYVƏND OLUNUB




İyunun 30-na olan son məlumata əsasən, Gürcüstanda koronavirus əleyhinə **261652** nəfər peyvənd olunub. Bu haqda hökumətin xüsusi yaratdığı www.stopcov.ge saytında qeyd edilib.

Məlumatda ölkədə koronavirusa yoluxanların ümumi sayı **366078** nəfər, sağalanların sayı **351747** nəfər, ölənlərin sayı isə **5316** nəfər olaraq göstərilib.

Ölkə üzrə karantin rejimində **54** nəfər, stasionar nəzarətdə **2669** nəfər, COVID mehmanxanalarda olan şəxslərin sayı **561** nəfə olaraq göstərilib.

## SEÇKİ MƏCƏLLƏSİNƏ DÜZƏLİŞLƏR QƏBUL OLUNUB



Gürcüstan parlamentinin 28 iyun tarixində keçirilən növbədənkənar iclasında seçki islahatları ilə bağlı qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

Sənədi 86 deputat dəstəkləyib, 3 nəfər isə əleyhinə səs verib.

Müxalif “Vahid Milli Hərəkat Partiyası - Güc birlikdədir” və “Lelo” fraksiyaları islahatları dəstəkləməyib.

Seçki Məcəlləsinə edilən əsas düzəlişlərə görə, Mərkəzi Seçki Komissiyasının tərkibi yeni qayda ilə təşkil olunacaq, səsvermədə elektron texnologiyalar tətbiq ediləcək, təbliğat-təşviqat kampaniyasında inzibati resursların istifadəsi qadağan olunacaq.



# TƏŞKİLOTULANMAQ

Azər MUSAOĞLU
azermusaoghlu@gmail.com

İndi bir ittifaq, bir birlik, bir qurum da mən yaratsam və adını da qoysam Gürcüstan Azərbaycanlılarının Redaktorlar Birliyi və ya İttifaqı, qarşısına da mötərizə içində qısaldılmış formada böyük hərflərlə GARB(İ) yazsam, qeydiyyatdan keçirib öz-özümə "fəaliyyət" göstərsəm (yəni özüm çalıb, özüm oynasam) xoşunuza gələrmi, əcəba?

Xoşunuza gələrmi, Gürcüstan azərbaycanlıları adından "iş" görəm, "redaktə" edəm, pul qazanam, qrant yeyəm, üstündən də xlorlu "qrant" suyu içəm, tədbir keçirəm, özüm danışam, özüm dinləyəm, özüm əl çalam, özüm şəklimi çəkəm feysbukda paylaşam, özüm də öz paylaşdığım şəklimi layk edəm, ürək qoyam, altına da şərh yazam... bir sözlə, özüm üçün "fəaliyyət" göstərib, adından çıxış etdiyim insanlar üçün fəaliyyətsizliklə məşğul olam.

Xoşunuza gəlməz, əlbəttə.

Sizin də Gürcüstan azərbaycanlıları adından, mənim adımdan, atamın, anamın, qardaşımın, bacımın, övladlarımın, qonşumun, onun nəvələrinin, nəticələrinin, kötücələrinin adından, Gürcüstanda yaşayan yarım milyona yaxın azərbaycanlının adından danışmağa, ittifaq, birlik, assosiasiya, nə bilim daha nəssosiasiya yaratmağa haqqınız yoxdur. Axı kim verib sizə bu haqqı?

Ay qardaş, ay bacı, ittifaqmı yaradırsan, birlikmi yaradırsan, qurummu yaradırsan, yarat, Allah xeyir versin, amma get öz adına yatar, daha Gürcüstan azərbaycanlılarının adına niyə yaradırsan? Get öz adını qoy yaratdığın ittifaqa, birliyə, quruma, daha niyə Gürcüstan azərbaycanlılarının adını qoyursan? Get öz adınla danış, çıxış elə, tərif söylə, söyüş söy, daha niyə Gürcüstan azərbaycanlılarının adı ilə danışırsan, çıxış edirsən, tərif söyləyirsən, söyüş söyürsən? Get öz adını biabır elə, rüsvay elə, daha niyə Gürcüstan azərbaycanlılarının adını biabır edirsən, rüsvay edirsən? Axı sənə bu haqqı kim verib?

Ay qardaş, ay bacı, ittifaq, birlik, assosiasiya, nə bilim daha nəssosiasiya yaradanda bölgə-bölgə, şəhər-şəhər, kənd-kənd, məhlə-məhlə düşüb Gürcüstan azərbaycanlılarına dedinmi ki, ay həzərat, sizin adınıza ittifaq, birlik, assosiasiya, qurum yaradıram, rüsxət verirsinizmi? Rüsxət aldınmı? Dedinmi ki, ***ittifaq*** *– ayrı-ayrı şəxslərin, qrupların, cəmiyyətlərin, siniflərin sıx birləşməsi, rabitəsi, birliyi, söz birliyi, həmrəyliyi* deməkdir. Dedinmi ki, ***birlik*** *– bir olma, bütün olma, parçalara ayrılmama, bütövlük, bölünməzlik, vəhdət* deməkdir. Dedinmi ki, ***assosiasiya*** *– ortaq siyasi, iqtisadi, mədəni, elmi və digər məqsədlərə nail olmaq üçün təşkilatların və ya şəxslərin birliyi, ittifaqı* deməkdir və sair. Ümumiyyətlə, sənin bu sözlərin mənalarından xəbərin varmı?

Xəbərin olsaydı ümumun adından tək özünə qurum yaratmazdın. Xəbərin olsaydı tayfabazlığın, yerlibazlığın, qohumbazlığın Yerin alt mantiyasına qədər kök atdığı bir cəmiyyətdə, söz birliyini *axşamdan oduna gedənlər* söz birləşməsi əvəz edən, həmrəyliyi yalnız birgünlük bayram kimi qeyd edən bir cəmiyyətdə **birlik**, **ittifaq** və bu kimi gözəl sözləri işlətməzdin. Ya bu işdə naşısan, ya da ümumun adı ilə dolanırsan, pul qazanırsan, ev alırsan, maşın alırsan, səyahət edirsən, hədə-qorxu gəlirsən, lotulanırsan, nüfuz yiyəsi olursan və ilaxır. Bu, təşkilatlanmaq deyil, təşkilotulanmaqdır.

Təşkilatlanmaq vacibdir. Birliklərimiz də, ittifaqlarımız da, assosiasiyalarımız da, nə bilim daha nəssosiasiyalarımız da mütləq olmalıdır, mütləq! Amma əgər sən Gürcüstan azərbaycanlılarının adından təşkilat, qurum yaradırsansa, iş görürsənsə, əvvəlcə buna haqqın olmalıdır, savadın, ziyan, əxlaqın, mədəniyyətin, mərifətin, şəxsiyyətin, ədalətin və azərbaycanlı ürəyin olmalıdır. Səni kimsə başımıza kəndxuda təyin etməməlidir, kimlərinsə maraqlarının icraçısı, ciblərinin mühasibi olmamalısan. Səni adına qurum, təşkilat yaratdığın, adından çıxış etdiyin, adından kağızlara imzalar atdığın millət özü seçməlidir. Ya da ki, təşkilat, qurum yaradanda zəhmət çək təşkilatına öz adını qoy, öz adına danış, öz adınla fəaliyyət göstər.

Mən Gürcüstan azərbaycanlısıyam, mənim adımdan təşkilat yaradıb, mənim adımla danışmağa, mənim adıma fəaliyyət göstərib pul qazanmağa, tədbir keçirməyə, sənəd imzalamağa, sağlıq deməyə, təhqir eləməyə, şam yandırmağa, siqnal verməyə sənin haqqın yoxdur. Mən haqqımı halal etmirəm. Bəs siz?

## İ.QARİBAŞVİLİ: QEYDİYYATSIZ MƏSCİDLƏRİ QANUNİLƏŞDİRMƏYİ PLANLAŞDIRIRIQ



"Mənim müsəlman icması ilə dostluq münasibətlərim var". Bunu Gürcüstanın baş naziri İrakli Qaribaşvili parlamentdə çıxışında deyib.

O, müsəlmanlara göstərdiyi dəstəyin sayəsində konkret nəticələrin əldə olunduğunu bildirib.

"İlk dəfə baş nazir olduğum dövrdə müsəlman icmasına yalnız sözdə deyil, əməldə də maksimal dəstək göstərmişəm. Onlar üçün çox işlər görmüşəm və bunu davam etdirəcəm", - İ.Qaribaşvili deyib.

Baş nazir onun hökumətə ilk dəfə başçılıq etdiyi illərdə yaradılmış Dini Məsələlər üzrə Agentliyin əsas dini konfessiyalarla səmərəli iş apardığını qeyd edib.

İ.Qaribaşvilinin sözlərinə görə, illərdir qeydiyyata alınmayan məscidlərlə bağlı problemlər aradan qaldırılacaq.

"Biz qeydiyyatsız məscidləri qanuniləşdirməyi planlaşdırırıq. İcmanı narahat edən digər cari məsələlərin də həlli nəzərdə tutulub", - deyə Baş nazir vurğulayıb.

## PANDEMİYA TƏLƏBLƏRİNİ POZANLARIN CƏRİMƏLƏRİ SİLİNƏCƏK



"Gürcüstanda pandemiya dövründə özünütəcrid, karantin və qoruyucu maskadan düzgün istifadə qaydalarını pozan şəxslər cərimələrdən azad olunacaqlar". Bunu Baş nazir İrakli Qaribaşvili xüsusi brifinqdə deyib.

Onun sözlərinə görə, müvafiq təşəbbüs parlamentə artıq təqdim olunub.

Hökumət başçısı qeyd edib ki, söhbət ödənilməmiş cərimələrdən gedir.

"Cərimələrin silinməsi 245 min vətəndaş və 344 hüquqi şəxsi əhatə edəcək. Ümumi məbləğ 76 milyon lari təşkil edir", - deyə Baş nazir bildirib.

## AÇIQ HAVADA MASKADAN İSTİFADƏ TƏLƏBİ ARADAN QLDIRILIB



22 iyun tarixindən etibarən Gürcüstanda açıq havada qoruyucu maskadan istifadə tələbi aradan qaldırılıb. Bu barədə Baş nazir İrakli Qaribaşvili brifinqdə bildirib.

O, maskadan ictimai nəqliyyat və qapalı məkanlarda istifadənin yenə də məcburi olduğunu qeyd edib.

Hökumətin digər qərarı ilə iyulun 1-dən komendant saatı tətbiq edilməyəcək.

## YERLİ SEÇKİLƏRİN TARİXİ MƏLUM OLUB

Gürcüstanda yerli özünüidarəetmə orqanlarına seçkilərin tarixi qanunla müəyyən ediləcək. Bu, ölkənin Seçki Məcəlləsinə edilən düzəlişlərdə əksini tapıb.

Layihəyə əsasən, yerli seçkilər oktyabr ayının ilk şənbə günü keçiriləcək.

Buna müvafiq olaraq, ölkədə builki yerli **seçkilər oktyabrın 2-də baş tutacaq.**

Qeyd edək ki, yerli seçkilərin tarixinin qanunda əks olunmasını müxalifət təklif edib və çoxluq tərəfindən dəstəklənib.

## XARİCİ İŞLƏR NAZİRİNİN YENİ MÜAVİNİ TÜRKİYƏ SƏFİRİ İLƏ GÖRÜŞÜB



Gürcüstanın Xarici İşlər Nazirliyinin məlumatına əsasən, xarici işlər nazirinin yeni müavini Teimuraz Cancalia Türkiyənin Gürcüstandakı səfiri Fatma Ceren Yazqanla görüşüb.

Tanışlıq xarakteri daşıyan görüşdə Gürcüstan və Türkiyə arasında əməkdaşlıq, həmçinin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın koordinasiyası məsələləri müzakirə olunub.

Tərəflər Qara dəniz hövzəsi ölkələri arasında iqtisadi əməkdaşlığın əhəmiyyətini və bunun Cənubi Qafqaz bölgəsi üçün önəmini vurğulayıblar. Söhbət zamanı regional və qlobal təhlükəsizlik məsələləri də nəzərdən keçirilib.

Görüşdə iki ölkə arasında strateji münasibətlərin aktual məsələləri üzrə qarşılıqlı fəaliyyətin davam etdirilməsinə dair hazırlıq ifadə olunub.

## TÜRKİYƏNİN DƏSTƏYİ İLƏ TBİLİSİDƏ QAFQAZ ZƏRGƏRLİYİ ÜZRƏ EMALATXANA AÇILIB



Gürcüstanın paytaxtı Tbilisidə Qafqaz zərgərliyinin tədqiqi üzrə emalatxana açılıb.

Layihə Türk Əməkdaşlıq və Koordinasiya Agentliyinin (TİKA) maliyyə dəstəyi ilə həyata keçirilib.

Emalatxananın yaradılmasında məqsəd Gürcüstanın ənənəvi zərgərlik sənətinin inkişafı və populyarlaşdırılması, Qafqaz mədəniyyətinin dünya mədəni nailiyyəti kimi qorunmasıdır. Layihə türk və Qafqaz mədəniyyətləri arasında dialoqun möhkəmləndirilməsi və incəsənət sahəsində əməkdaşlığın gücləndirilməsidir.

Açılış mərasimində iştirak edən Türkiyənin Gürcüstandakı səfiri Fatma Ceren Yazqan Gürcüstanın zəngin mədəni irsə sahib olduğunu deyib. Onun sözlərinə görə, emalatxanada Gürcüstanın müxtəlif bölgələrinə aid zərgərlik məmulatları dizayn ediləcək, hazırlanacaq və həm də bərpa olunacaq.

Səfir bildirib ki, Azərbaycan ilə Gürcüstan arasında körpü olan və azərbaycanlıların yaşadığı Kvemo Kartli – Borçalı bölgəsinin tarixi zərgərlik məmulatları özünəməxsusluğu ilə seçilir:

"Gürcüstan vətəndaşları olan azərbaycanlılar arasında zərgərlik sahəsində bacarıqlarını inkişaf etdirmək, ənənəvi motivlər və naxışları yaşatmaq istəyənlər olarsa, bu emalatxanada onlar üçün də imkanın yaradılması mümkündür. Bu layihəyə bənzər layihənin Tbilisidən kənarda da reallaşdırılması mümkündür. Açılışını etdiyimiz emalatxana ilk addımdır. Zinət əşyaları əl işi olduğundan çox qiymətlidir, lakin mədəni və tarixi miras nümunələrinin taxılması insana qürur verir".

*Mənbə: report.az*

## ƏCNƏBİLƏRİN GÜRCÜSTANA DAXİL OLMA QAYDALARINA DÜZƏLİŞ EDİLİB

Gürcüstana xarici ölkələrdən daxil olan 10 yaşadək uşaqlar son 72 saat ərzində aparılan PCR testinin mənfi nəticəsini təsdiqləyən arayış təqdim etmək öhdəliyindən azad edilib.

Bu, Gürcüstan hökumətinin əcnəbilərin ölkəyə daxil olma qaydalarına edilən düzəlişdə əks olunub.

Qeyd olunan yaşa qədər uşaqlardan həmçinin sərhədi keçəndən sonra üçüncü sutkanın tamamında təkrar PCR testindən keçmək tələb edilməyəcək.

## BİZ KİMİN "ŞİNEL"İNDƏN ÇIXMIŞIQ?



Şinel – xüsusi biçimdə tikilmiş əsgəri qış paltosudur. Dünyadakı bir çox silahlı qüvvələr tərəfindən istifadə olunur. Hərbi xidmətdə olarkən iki qış mövsümündə daşıdığım şineldən bu yadımda qalıb: o, arada-sırada Dnestr qoxuyurdu. Dnestr – mənim hərbi hissəmin yerləşdiyi və əsgər məktublarıma ünvan olan Tiraspol şəhərindən keçən çayın adıdır. Moldav dilində Nistru adlanır. Futbol azarkeşlərinin yaddaşında qalmış olar: paytaxt Kişinyovun eyniadlı futbol komandası da var idi. Nədənsə daim uğursuzluqların izlədiyi autsayderlər sırasında olardı.

Bir zamanlar o şinel mənə hətta Stalinin şinelini də xatırladırdı və bir payız günü Dnestr üzərindəki körpüdə birdən-birə dağınıq fikrimdən keçmişdi ki, sürgünlərə məruz qalmış şairlərin ruhları o şinellərin arazbarı açılmaq bilməyən düymələrində necə həbs olunurmuş! Bəlkə elə bu səbəbdən dünya şairləri-yazıçıları bədənlə ruh arasındakı əlaqə qırılmalarını, bağlantı kəsintilərini bərpa eləmək cəhdləri ilə yaşamaqdadırlar, yazmaqdadırlar.

...Amma sözümüzün qürbət-qərib canına qayıdaq.

Unudulmaz Mirzə Cəlilin "Qurbanəli bəy" hekayəsinin epiqrafında deyilir: "Qoqol, Allah sənə rəhmət eləsin". Lakin niyə məhz Qoqol? Əlbəttə, bunu söz sahibinin özü bilərdi. Təxmin etdiklərimiz özümüzdə qalsın.

Qoqol haqqında başqa çox məşhur ifadələr də var ki, onlardan biri Dostoyevskiyə məxsusdur; belə buyurur: "Biz hamımız Qoqolun "Şinel"indən çıxmışıq". Bu qanadlı ifadənin fransalı tənqidçi Ejen Voqyuenə məxsus olduğunu da iddia edənlərlə işimiz olmaz. Dahi Dostoyevski "Şinel" deyərkən, təbii ki, əsgəri qış paltarını deyil, unudulmaz Qoqolun "Şinel" povestini nəzərdə tuturdu. Yəni qələm insanları olaraq bu yazıçılığın hansı hövzələrdən qaynaqlandığını, hansı mənbələrdən baş alıb gəldiklərini və haralara varıb getdiklərini nəzərə çatdırırdı. "Biz" – yəni Dostoyevski özü, Turgenev, Tolstoy və sairə. Təsəvvür edirsiniz. Bilirəm. Yəni o vüqarlı Söz dağlarının, obrazlılıq, emosionallıq, canlılıq sərraflarının (və biz tərəflərin təbirincə: ustad – şəyird münasibətlərinin) haralara borclu olduğunu incələyirdi.

Mən Qoqolun "Şinel"ini ilk dəfə mərhum Mikayıl Rzaquluzadənin tərcüməsində, illər sonrası orijinalda, bizim günlərdə isə qələm dostum Etimad Başkeçidin çevirməsində oxumuşam. Hər dəfə də, eynən Mirzə Cəlil sayağı, Qoqola rəhmət diləmişəm.

Kimin ağlına gələrdi ki, günlərin bir günü Süsən-Sünbüldə Qoqolun tərəfdarı ilə əleyhdarı arasında dava düşə? Amma düşdü; özü də necə?

Dava salanın biri Mirzə Qələm idi. Onu tanıyırsınız. Biri isə Səfil Tacir Tiflisi idi. Yox, onu tanımırsınız. İndi tanıdım:

Səfil Tacir Tiflisi. Doğrudur, biz tərəflərdə tənqidbaz-kritikan adam bolluğudur, amma Səfil Tacir Tiflisidən olmaz! Səfil Tacir Tiflisi bəlkə də şair ola bilərmiş, tarixçi, coğrafiyaşünas, filban, jonqlyor ola bilərmiş. Amma öz "talant"ını, "istedad"ını bu sahələrdə sınayıb, uğur qazanmadığını görərək kritikan oldu. Kim gəldi xızdıyıb tökür. Hansı mövzuda deyirsən bıdır-bıdır ötür. Poetik sintaksis, poetik fiqur tanımaz. İşarə, rəmz bilməz. Puldan başqa heç nəyi olmayan adamdır. Onun pulları olan yerlərdə saflıq, təmizlikmi olar? Əlbəttə, olmaz! "Tiflisi" təxəllüsü də o demək deyil ki, o, Tiflis əmirliyi dövrü Tiflisilərinin yapıncısından, boxçasından, qaraçuxasından (ya da Qoqol "Şinel"indən) çıxıb. Qətiyyən!

Ən çox da Qoqolu tənqid edir. Deyir onun adını buralarda tamamilə silmək lazımdır! Çünki o, bizim "Ölü canlar" sirrimizi dünyaya faş eləyib. Bunu da iddia edir ki, Mirzə Ələkbər Sabir də Qoqolçu olub və elə bu üzdən də indi onun, yəni Səfil Tacir Tiflisinin, adını daşıdığı babası Səfil Taciri "Səfil Tacir deyir ki..." adlı şeirlə ifşa eləyib:

*Bir neçə ildir ki, uyub işrətə,*
*Bilməmişəm əmri-ticarət nədir?*
*İndi deyirlər: tacir, borcun da var..*
*Çox da var, ondan mənə xiffət nədir?*
*Xiffəti qeyrətli edər, mən ki, hiç*
*Bilməmişəm dəhrdə qeyrət nədir?!*

P.S.

...Duyğuların cazibəsinə qapılmaq sənətinə – yəni ədəbiyyata vurulmağa dəyirmiş! Füzulinin, Nəsiminin, Vaqif Səmədoğlunun, Vaqif Bayatlının duyğular dünyasında yaşamaq nə eşqlər gətirirmiş!

Başda gələn də İnsan məhəbbəti!

...İndi de görüm, sən kimin "şinel"indən çıxmısan? Əlbəttə, əgər sirr deyilsə...

**İBRAHİMXƏLİL**

# BAŞ NAZİR: "MÜƏLLİMLƏRİMİZİN VƏ NAZİRLİYİN SƏYİ NƏTİCƏSİNDƏ SEÇİLƏN ÖLKƏLƏRDƏN BİRİ OLDUQ"



***"Biz müəllimlərin və nazirliyin səyi nəticəsində yalnız məqsədimizə nail olmadıq, həm də beynəlxalq miqyasda seçilən ölkələrdən biri olduq".*** Bunu Baş nazir İrakli Qaribaşvili parlamentdə hesabat və ölkənin inkişafının on illik planını təqdim edən zaman deyib.

O, ümumi, peşə və ali təhsildə həyata keçirilmiş dəyişikliklərdən də danışıb.

***"Təhsilin bütün pillələrində aparılan islahatın məqsədi, əlbəttə, sistemli inkişafdır. Təhsil və elmin uzunmüddətli perspektivi 10 illik inkişaf planında təsvir olunacaq. Təhsil və Elm Nazirliyi bunun üzərində fəal işləyir.***

***Təhsilin bərabər əlçatanlığının təmin edilməsi üçün 2021-ci ildə ilk dəfə məktəbdən kənar qalmış uşaqların monitorinqi üzrə dövlət proqramı keçirildi. Bununla yanaşı, fərqli təhsil proqramı hazırlandı və biz onları məktəbə qaytarmaq üçün fəal olaraq işləyirik.***

***Həmçinin qeyd edim ki, son 8 il ərzində biz 174 yeni ictimai məktəb inşa etdik və 57 məktəb tam bərpa olundu. Pandemiyaya görə, əlbəttə, təhsil prosesi qismən distant qaydada həyata keçirildi. Biz müəllimlərin və nazirliyin səyi nəticəsində yalnız məqsədimizə yaxşı nail olmadıq, həm də beynəlxalq miqyasda fərqlənən ölkələrdən biri olduq.***

***Peşə təhsili istiqamətində miqyaslı islahat həyata keçirildi və bu proses davam etdirilir. Sistem bir daha Avropa standartına yaxınlaşdı. Milli kvalifikasiyaların müasirləşdirilməsi həyata keçirildi. Müvafiq kvalifikasiyalı müəllimlər korpusu hazırlandı, təhsil korpusu yaradıldı və peşə təhsil sistemi daha fəal oldu, bütün maraqlanan şəxslərin ehtiyacına uyğunlaşdırıldı. Böyüklərə tez işlə təmin olunmağa dəstək olmaq proqramlarında hazırlıq təklif olunur, infrastruktur qurulub və bunların hamısı davam etdirilir. Peşə proqramları bütün bölgələrdə əlçatandır və bələdiyyədə peşə təhsil müəssisəsi olmalıdır. Bizim məqsədimiz budur.***

***Universitetlər pandemiya şəraitində bizim tövsiyələri nəzərə aldılar və tələbələrə təhsil haqqının ödənməsinin təxirə salınmasını, yaxud sürətli fərdi qrafik təklif etdilər. Ali təhsilin beynəlmiləlləşdirilməsi və dərəcənin inkişafı istiqamətində bizim ciddi tərəqqimiz var",*** - deyə İ.Qaribaşvili çıxışı zamanı bildirib.

# İMTAHANLARDA HANSI QAYDALARA ƏMƏL OLUNMALIDIR?



2021-ci ilin imtahan protokolu məlumdur və imtahanlar tövsiyələrə tam əməl etməklə keçiriləcək.

Qeyd olunan mövzu ilə bağlı təhsil və elm nazirinin müavini Nunu Mitskeviç, Milli Qiymətləndirmə və İmtahanlar Mərkəzinin rəhbəri Sopo Qorqodze, Xəstəliklərə Nəzarət və İctimai Sağlamlıq Milli Mərkəzinin direktor müavini Paata İmnadze nazirlikdə keçirilmiş brifinqdə danışıblar.

**N.Mitskeviç** bildirib ki, 1 iyul tarixində imtahan prosesi ənənəvi olaraq başlayacaq. İmtahanın Təşkili Qrupu bütün il ərzində davamlı şəkildə buna hazırlaşıb. COVID-19-un qarşısının alınması məqsədi ilə ölkədəki tənzimləmələrə müvafiq olaraq mövcud tövsiyələrə yenidən baxış keçirilib. Ötən ilin yaxşı təcrübəsi nəticəsində yeni yanaşmalar hazırlanıb. Nazir müavininin sözlərinə görə, imtahanın təşkil edilməsinə qoşulmuş hər kəsin təhlükəsizliyinin qorunması vacibdir. İmtahanda iştirak edən hər bir şəxs təhlükəsiz və rahat mühitlə qarşılaşacaq. Onlar orada biliklərini tam göstərə biləcəklər.

N.Mitskeviçin sözlərinə görə, imtahanlarda 2021-ci ilin əsas yeniliyi bu olacaq ki, imtahan aparılan zaman virus təsdiqlənən aplikantlar imtahandan uzaqlaşdırılmayacaq. Milli İmtahan Mərkəzi koronavirus aşkarlanan şəxslərə ən azı iki həftədən sonra əvvəlcədən hazırlanmış cədvələ uyğun müvafiq fənn üzrə imtahan keçirəcək. Coğrafi əhatə nəzərə alınacaq.

**Sopo Qorqodze** öz növbəsində bildirib ki, imtahan iştirakçıları Xəstəliklərə Nəzarət və İctimai Sağlamlıq Milli Mərkəzinin, Əmək Müfəttişliyi Xidmətinin müəyyən etdiyi tövsiyələrə əməl etməlidirlər:

***Maksimum dərəcədə sosial məsafəni qorumalıdırlar;***

***İmtahana qeydiyyat zamanı, eləcə də imtahan aparılan zamanı tibbi maskada olmalıdırlar;***

***Dezinfeksiya məhlulu ilə əllərini təmizləməlidirlər;***

Həmçinin Xəstəliklərə Nəzarət və İctimai Sağlamlıq Milli Mərkəzi tərəfindən işlənilib:

*İmtahan mərkəzindən qəbul edilən işlərin təhlükəsizliyi, imtahan mərkəzinin təmizlənməsi, sanitar nöqtələrin – tualetlərin təmizlənməsi/dezinfeksiyası, mərkəz heyətinin işləməsi üçün şərait.*

Sopo Qorqodzenin sözlərinə görə, mərkəz bu il də bədən hərarəti 37 dərəcə və daha artıq qeydə alınanlar, lakin koronavirus təsiqlənməyənlər üçün məkan yaradacaq.

**Paata İmnadze** Xəstəliklərə Nəzarət və İctimai Sağlamlıq Milli Mərkəzinin, Əmək Müfəttişliyi Xidmətinin müəyyən etdiyi tövsiyələr barədə danışıb və əlavə edib ki, ***imtahan iştirakçıları və müşahidəçilər imtahan sektorunun sahəsinin yalnız 50%-nə buraxılacaqlar;***

***Hər iş masası ön tərəfdən şəffaf, qoruyucu maneə ilə təchiz ediləcək;***

***Masalar arasındakı məsafə yan tərəflərdən minimum 2 metr, ön və arxa tərəflərdən isə 1 metr olacaq;***

***Kondisionerlər havanın temperaturu 30 dərəcə və daha yüksək olduqda qurulacaq.***

Bundan əlavə, P.İmnadzenin sözlərinə görə, ölkədə tətbiq edilmiş ümumi tənzimləmələrə uyğun olaraq ***maska taxmaq qaydası imtahan prosesində iştirak edən bütün şəxslərə aiddir.***

# KİM MƏKTƏB DİREKTORU OLA BİLƏR?

*Direktor olmaq istəyənlər üçün imtahanlar 2020-ci ildə planlaşdırılmışdır, ancaq Gürcüstanın Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyindən "etaloni.ge"yə bildiriblər ki, koronavirus pandemiyasına görə 2020-ci ilin mart ayında anons edilmiş ictimai məktəb direktorlarının sertifikatlaşdırılması mərhələsi epidemioloji vəziyyət düzələnə qədər təxirə salındı. Doğrudur, imtahan vaxtı hələ də məlum deyil, ancaq müəssisədən bildiriblər ki, imtahan 2021-ci ildə keçiriləcək.*

**Kim məktəb direktoru ola bilər və direktor olmaq istəyənlər bu vəzifəyə təyin olunmaq üçün hansı mərhələlərdən keçməlidirlər?**

Ali təhsili, 3 il iş təcrübəsi olan və Gürcüstan qanunvericiliyi ilə tətbiq edilmiş tələbləri qane edən hər bir Gürcüstan vətəndaşının direktor olmaq hüququ var. İmtahanı uğurla verməkseçim müsabiqəsinə düşməyin əsas şərtidir.

***Direktor 6 il müddətinə seçilir.*** Bir məktəbdə eyni şəxsin direktor təyin olunması yalnız iki dəfə mümkündür.

Direktor yaxud direktor səlahiyyətlərini icra edən qəsdən törədilmiş cinayətə görə mühakimə edilmiş və mühakimə altında olan şəxs olmamalıdır.

Direktor vəzifəsində işləyən şəxsin həmin məktəbdə, eyni zamanda digər maaşlı işdə işləməsi uyğun deyil. ***İstisna:*** Gürcüstan qanunvericiliyinə uyğun olaraq, direktorun pedaqoji fəaliyyətlə məşğul olmaq hüququ var.

Direktorun seçilməsi, yaxud direktor səlahiyyətlərini icra edən şəxsin təyin olunması direktor müavini/müavinlərinin səlahiyyətinin vaxtından əvvəl dayandırılmasına səbəb olur.

**Direktoru kim və necə seçir?**

Qanunvericilikdə qeyd olunduğu kimi, Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyi açıq müsabiqə əsasında şəffaf, bərabər və ədalətli rəqabət prinsipi ilə ictimai məktəb direktorluğuna namizəd seçir.

İctimai məktəb direktorluğu ilə bağlı müsabiqənin keçirilməsini təmin etmək üçün Gürcüstanın Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyi müsabiqədə iştirak etməyə görə məbləğ təyin edə bilər.

Məktəbin Qəyyumlar Şurası Gürcüstanın Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyi tərəfindən təqdim edilmiş, müsabiqədən keçmiş direktorluğa namizədlərdən siyahı çoxluğu, gizli səsvermə, azad və bərabər seçkilər əsasında direktor seçir.

Direktor müsabiqəsi ilə bağlı mübahisəli aktlar məhkəməyə şikayət olunur və şikayət onların fəaliyyətinin dayandırılmasına səbəb olmur. Əgər direktorluğa namizəd Qəyyumlar Şurasının üzvüdürsə, o, səsvermədə iştirak etmir.

Qəyyumlar Şurası tərəfindən direktorun seçilmə protokolu və seçilmiş şəxsin şəxsiyyət vəsiqəsinin surəti qeydiyyat üçün Təhsilin İdarəsi üzrə Məlumat Sisteminə təqdim olunur. Sistemdə qeydiyyatdan keçdiyi andan direktorun səlahiyyətləri qüvvəyə minir. Təhsilin İdarəsi üzrə Məlumat Sisteminin direktorun qeydiyyatdan keçirilməsi məsələsi ilə bağlı qərarı məhkəməyə şikayət olunur və onun şikayət edilməsi mübahisəli aktın fəaliyyətinin dayandırılmasına səbəb olmur.

Qəyyumlar Şurası seçilmiş direktorla əmək müqaviləsi bağlayır. Müqavilə Gürcüstanın Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyinin təsdiq etdiyi müqavilə şərtlərinə uyğun bağlanır.

Qəyyumlar Şurası tərəfindən ictimai məktəb direktorunun seçim müsabiqəsi qaydasına uyğun olaraq direktorun seçilməməsi/seçilə bilməməsi halında Gürcüstanın Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyi müstəqil səlahiyyəti çərçivəsində direktor təyin edə bilər. Direktorun təyin olunması ilə bağlı Gürcüstanın Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyinin qərarı məhkəməyə şikayət olunur və onun şikayət edilməsi mübahisəli aktın dayandırılmasına səbəb olmur.

**Direktorun səlahiyyəti hansı hallarda ləğv olunur?**

Direktorun səlahiyyətinin dayandırılması, yaxud direktorun öz səlahiyyətlərini 60 gün ərzində həyata keçirə bilməməsi halında Gürcüstanın təhsil, elm, mədəniyyət və idman naziri direktorun səlahiyyətlərini icra edən şəxsi azad etmək, yaxud təyin etmək hüququna malikdir.

*Səhifədəki məlumatlar "etaloni.ge" saytından götürülüb.*

*Gürcü dilindən tərcümə etdi:*
**Aynurə ƏLİYEVA**

# MƏN VƏ MƏRYƏM

Səni böyük sevgi və darıxmışlıqla salamlayıram dəyərli "Yeni Yol" oxucusu. Uzun zamandır bu və ya digər səbəblərin bizi ayrı salmış olmasına baxmayaraq sənin yerin məndə hər zaman ayrıdır, hər zaman dəyərlidir.

Zamanın və zamandan doğan məşğulluqların bir daha bizi ayırmayacağını diləyərək başlayacam sənə dönüş yazıma.

Bu gün sənə mən və çox sevdiyim bir gürcü rəfiqəm haqqında yazacam. İndi haqlı olaraq səni bir sual qıcıqlandıracaq ki, camaata nə lazımdır sənin rəfiqən, elə budurmu döndüm dediyin. Ancaq və lakin, qərar verməkdə tələsməyib, sözümü sonlandırmağa izin verməni rica edirəm.

Sənə də gözəl məlum olan bir hal var ki, vətənin paytaxtında ali təhsil almaq illəri minlərlə gəncimizə yeni yollar, yeni insanlar qazandıraraq, həyatımızı rəngləndirmək, zənginləşdirmək üçün imkan yaratdı. Məryəm də mənim həyatıma qatılan gözəl insanlardan biri idi. Uzunçuluq etmədən deyim ki, onunla birlikdə uzun vaxt, gözəl anlar bölüşdük, eyni evi, eyni səhəri, eyni şəhəri, eyni sevincləri, eyni üzüntüləri paylaşdıq. Bir- birimizin qorxularını öyrəndik, bir-birimizi bacardığımız qədər sevindirməyə, güldürməyə çalışdıq və çox zaman bunun hamısına nail olduq.

Bir zaman sonra, bəli bəli, sözümün canı olan bir zamandan sonra təxminən eyni zaman dilimində biz həyatımızı birləşdirəcəyimiz insanlarla qarşılaşdıq. Nə xoş! Nə gözəl!

Ailə qurduq... Necəmi? Sözümün, söhbətimin canı da elə budur...

Məryəm və ailəsi əziz və yaxın insanları ilə iki gün ərzində hazırlaşaraq, kiçik bir məclis quraraq, gözəl günləri üçün şirin bir xatirə saxladılar.

Mən və ailəm 500 nəfərlik məclisi qurub, insanları qarşılayıb yola salmaq üçün dərindən-qabıqdan çıxdıq.

Məryəm və ailəsi, qonaqlarını qarşılamaq və bu gözəl günü qeyd etmək üçün küncdə-bucaqda olan, Allah verən nə pulları vardısa, toplayıb işlərini aşırdılar. Ayaqlarını yorğanlarından bir zərrə də qırağa uzatmadılar. Toya xas adətlərini də yenə üsulunca, yorğanları çərçivəsindəcə icra etdilər...

Mən və ailəm qonaqlarımızı qarşılamaq və bu gözəl günü qeyd etmək üçün Allah verən və verməyən pullarımızı, küncdə-bucaqda olan və olmayan saxlanclarımızı toplayıb işimizi aşırdıq. Amma baxdıq ki, yorğan nəinki ayağımızı örtmür, heç boğazdan aşağımıza çatmır, eləcə başımızı örtüb... Biz toya xas adətlərimizi bahalı libaslara büründürərək icra etdik...

İş dediyim, orada da, burada da iki insanın ailə qurmasından ibarətdir.

Məryəm də, yaxınları da bu gözəl günü əbədiləşdirmək üçün çəkilən şəkillərdə çox ucuz və sadə paltarlarda çox gözəl görünürlər.

Mən də, yaxınlarım da bu gözəl günü əbədiləşdirmək üçün çəkilən şəkillərdə çox bahalı və dəbdəbəli paltarlarda heç gözəl görünmürük. Onların üzündə yüngüllük, rahatlıq, bizim üzümüzdə ağırlıq, narahatlıq var.

Biz pörtmüşük... Stres, yorğunluq, günlərlə o yana-bu yana qaçmaq bizi haldan-hala salıb...

Məryəm şad-xürrəmdir, məni isə elə bil zorla evləndirirlər.

O kimin nə düşündüyünü düşünmür, məni isə üzümə baxıb yanındakının qulağını pıçhapıç seliklə dolduran, adını belə bilmədiyim, adımı belə bilməyən qıyıqgöz bir xalanın baxışları stresə salır. Yüz faiz nəsə bəyənməyib, onu danışır... Bəlkə də kababın ürəyi istəyən yeri düşməyib... Ya da anam buna rahat xoşgəldin etməyib...

Məryəmin anası sevincindən yerə-göyə sığışmır və bu sevincini hər kəslə bölüşür.

Mənim anam da sevinir, ancaq bunu göstərə bilmir, rəqs etmir, çünki qız anası üçün *"booy, necə də sevincək olub, qızının əlindən bezibmiş deyəsən"* cümləsi hazırcadı. Sanki, Məryəm anası üçün övladdı, mən anam üçün kartof qabığı-zadam...

Xülasə, toydan sonra onlar və ailələri həyatlarına normal axarla davam edirlər... Xoşbəxtdirlər, iki övladları var... Yeni Məryəm və həyat yoldaşının toy əhvalatı oradaca bitdi, arada süfrədə, dost-tanış arasında xatirə kimi danışıb-gülməkdən ibarət qaldı...

Toydan sora biz və ailələrimiz həyatımıza normal axarla davam etmədik. Biz də xoşbəxtik, bizim də iki övladımız var... Ancaq bizim toy əhvalatımız hələ davam edir... Ailələrimizdə *filankəs toya nəmər salıb, qaytarmaq lazımdır* cümləsi səslənəndə, toyun üstümüzdə tozlanıb-paslanan xərcləri yada



düşəndə, şəkillərdəki əndərəbadi sifətlərimizi görəndə bizim toyun hələ neçə il davam edəcəyini təxmin belə edə bilmirik...

Məryəm və ailəsi hər həftə teatra, kinoya, ən pis halda uşaqları ilə birlikdə təbiət qoynunda gəzintiyə gedir, biz isə axırıncı qəpiyimizi nəmər aparırıq... Toyumuz birdən bizə elə toy tutur ki, gəl görəsən...

Nə başını ağrıdım, dəyərli oxucu, mən tək olmadığıma da, toyu uzun illər davam edəcək insanların bizim yerlərdə boğazdan aşacaq qədər çox olduğuna da əminəm. Bir də, danışdıqlarımın sənin üçün də heç yad şeylər olmadığına əminəm.

Sağlıqla qal!

**Afayət AFİQ**

# AZAD OLMAĞI BACARMAQ



Hər məqalənin, yazının yazılmasında müəyyən səbəblər var – cəmiyyətdə olan problemlər, gələcək nəslin inkişafı, insanın var oluşunu dərk etməsi və s. Qələmə aldığım bu mövzunu da bu gün cəmiyyətimizdə yeri gəldiyində yazılı, yeri gəldiyində şifahi olaraq dilə gətirməyi bacarmalıyıq.

Cəmiyyətimizin hər bir fərdi cəmiyyətdə olan problemlərlə qarşılaşdığında laqeyd yanaşmamalıdır. Bu gün bir çoxumuz cəmiyyətimizdə baş verən eyni problemdən narazıyıq və şikayətlənirik. Ancaq heç düşünmürük ki, bugünkü narahatçılığımızın olmaması üçün dünən nə etmişik?

Yəni problemlər addım-addım gələrkən, bizlər onu yalın gözlə görərkən niyə arxaya yaslanıb film seyr edər kimi izlədik axı? İndi bu gün də dünən izlədiyimiz filmin canlı səhnələrini görürük. Dünən səhnədə oynanan filmi izlərkən bu səhnə gerçək həyata yansıyarsa necə olacağını heç düşündükmü? Düşünsəydik bu gün cəmiyyətimizi narahat edən problemlərin bir çoxu ilə qarşılaşmazdıq.

Düzdür, insanoğlu yaşadıqca hər cür çətinliklə qarşılaşır, ancaq bəzən çətinliklər anidən deyil, illər öncəsindən gələcəyini xəbər verir. Bu xəbəri eşidən zaman hərəkətə keçib onu durdurmağa çalışmalıyıq ki, onunla qarşılaşmayaq. Bizə gəlməz dediyimiz problemlərlə hazırda qarşı-qarşıya çarpışmaqdayıq. Əgər hər kəs özünü məsuliyyətli hiss edirsə, özünü cəmiyyətin bir parçası olaraq görürsə və bu şüurla yaşayırsa, bu məsələlərin həlli üçün çalışsa, inanın ki, bu sıxıntıların bir çoxu aradan qalxar.

Uca Allah doğruyu yanlışdan seçə bilməyimiz üçün biz insanlara duyğular verib. Bu duyğuları lazım gəldiyində istifadə etməyi bacarmalıyıq.

İnsanoğlu yeri gəldiyində sorğulamağı bacarmalıdır. Sorğulamaq da iradə duyğusunun bir nəticəsidir. Əgər insan sorğulamadan itaət edirsə, o zaman iradə duyğusu aradan çəkilmiş, insan itaət etdiyinin vassalı olmuşdur deməkdir. Başqaları tərəfindən idarə olunan insanın nə ailəsinə, nə də cəmiyyətə faydası olar. Çünki idarə edən nə istəyərsə itaət edən də onu sorğulamadan həyata keçirər, özünün sərbəst düşüncəsi olmaz. Bir sözlə, tabe olan insanın iradəsi aradan qalxar və tabe olunan insanın maraqlarını güdər. Tabe olduğu insanın itaətində olarkən ondan gələn əmrlərin faydalı olub-olmadığını, doğru olub-olmadığını araşdırmaz və bir növ də robotlaşmış, at gözlüyü taxmış olar ki, onda da sadəcə baxdığı yeri görər.

Bir tərəfdə müstəqil düşüncə və davranışları ilə anlayaraq və dərk edərək, doğrunu-yanlışı ayırd edərək iradəli şəkildə yaşamaq varkən, digər tərəfdə də tabe olaraq tamamən iradəni itirərək yaşamaq var. Kamil insan heç düşünmədən, təbii ki, ən doğru olanı seçər və birinci yol ilə gedər. Ancaq həyata dair baxışları formalaşmamış və iradəsi zəif insanlar ikinci yolu seçər və başqalarının itaəti altında yaşayar. Zaman keçdikcə ikinci yolu seçənlər ayıldıqlarında artıq iş işdən keçmiş olar və geri dönülməsi mümkün olmayan yol qət etmiş olarlar və beləcə də ömür yolçuluqları sonu xüsran dolu bir məqamda bitər.

Ömür sərmayəsi hər kəsə verilmişdir və bizlər də bizə verilən ömrü özümüz kimi yaşamalı, başqalarına itaətdə sərf etməməliyik. Ömür əldən gedəndən sonra arxası ilə ah-vay etmək gedən ömrü geri gətirməyəcəkdir. Bu səbəblə də hər deyilənə inanmamalı, doğrudurmu, yalandırmı deyə araşdırmalıyıq və deyilənlərin nə səbəbdən deyildiyinə baxmağı bacarmalıyıq.

**Lamiyə HACIYEVA**

*Bütün Gürcüstan Müsəlmanları İdarəsinin Qadınlar Şurasının sədri*

# İOSİF QRİŞAŞVİLİNİN
# "QƏDİM TİFLİSİN ƏDƏBİ BOHEMASI" ƏSƏRİNDƏN BİR PARÇA
## VƏTƏNDAŞLIQ MOTİVLƏRİ



(əvvəli ötən sayda)

Unutmayaq ki, bu fəhlələr çəkic və qələm işlətməkdən başqa, odövrkü inqilabi hərəkatda da fəal iştirak edirdilər. Onların cəhdi və sinfi şüuru belə idi.

Fəhlələrlə birlikdə aşbazlar və əl buyruqçuları da həyatın yeniləşdirilməsinə doğru cəhd edirdilər. Əgər köhnə vaxt deyirdilərsə:

***"Yol açaq biliyin axtarışına,***
***Hər bir anlayışdan şərab üstündür".***

İndi onların güclü istəyi başqa cür idi. Bir əl buyruqçusu şair söyləyir:

***"Ey tanrı ver bizim ölkəyə***
***Bəxt və bəxtəvərlik.***
***Ey tanrı, ver gürcülərə***
***Təhsil və elm.***
***Ey tanrı, qoy onların qəlbinə***
***Qardaşlıq və məhəbbət***
***Ki, bir-birinə göstərsinlər,***
***Sədaqətli xidməti"*** *(V.Kirvalidze, bax: "Kvali", 1924-cü il, 1 yanvar. Bu Kirvalidze o Kirvalidzedir ki, G.Seretelinin dəfnində 101 nəfərin adından nitq söyləmişdir. Bu nitqə İlya Cavcavadze "Axalmosuli ("Yeni gəlmiş") təxəllüsü ilə əks-səda vermişdir. Mübahisə düşmüşdür. İlyanın cavabı məlumdur. "...Səs ölçüb biçilməli, hesablanmamalıdır. İstəyirsiniz Gürcüstanda, elə götürək, on min nəfərə imza atdıra bilərəm ki, yer kürəsi öküzün buynuzları üzərində durur və görəsən bu cüzi biliyə malik insan üçün sənətdirmi? Doğrudanmı Qalileyin bir səsinə nisbətən on min insanın səsi daha çox çəkiyə malikdir? Əgər insanın özü sıfırdırsa, kəndli, istərsə də knyaz, bunun kimilərini əl-ələ vermiş halda cərgələsək, hər halda sıfırdır (Bax: "İveriya", 1901-ci il, №65).*

Aşbaz Svimon Maisaşvili də kəskinləşmiş həyatdan şikayət edir, amma bununla yanaşı gələcəyin ümidini canlandırdığından birgə "bu cür işgəncənin dərdini çəkmir". Bax, onun səmimi şeirlərindən biri:

***"Sənətkaram, tutmuşam***
***Əlimdə çömçə və kəfkir.***
***Kasıb küçədə zəhmət çəkirəm,***
***Yoxluğa ağlamıram.***

***Sağ əlimdə tutmuşam qələm,***
***Sol əlimlə ətin kəfini alıram.***
***Bu yaşayışla mən yazıram***
***Özümün əhvalatlarımı.***

***Kömürün qoxusu, hərarətilə,***
***Çox olmuşam inildəyən.***
***Bu cür işgəncənin dərdini çəkmirəm,***
***Bu işgəncə həqiqətindir."***

O biri şeirdə elə həmin Svimon Maisaşvili V.Kirvalişviliyə müraciət edir... Burada da eyni "həqiqət" və "qardaşlıq" özünün adı-şanıdır:



***"Mənim tanrım! Nə ki, istedadı***
***Mənim üçün veribsən,***
***Onu özümlə bu dünyadan aparmıram,***
***Onu qardaş üçün vermişəm.***

***Tanrım, mənə əvvəlcə ver həqiqəti***
***Ki, günah kədərləndirməsin.***
***Sonra bu cür istedadı,***
***Öləndən sonra da hamı xatırlasın."***
*(Svimon Maisaşvili, "Şeirlər", 1898-ci il, səh. 10,12. Qeyd etmək lazımdır ki, bu iki şeiri Artur Leyst alman dilinə tərcümə etmişdir (Bax: "Georgische Dichter", Leypsiq, 1900-cu il, səh. 126, 128).*

Sv. Maisaşvili savadsız kəndlidir. A.Xvedelianinin (1867-1897) dostu, onun dükanının aşbazı, onunla birgə böyüyəndir. Bu Arçil Xvedeliani həddindən artıq mərifətli şəxs idi: Öz muzdurlarına qarşı kitab oxumaq ixtiyarı verməyən "ağalara" bənzəmirdi. Kitabsevər kimi Xvedeliani elə özü onun "dükanının oğlanları"nın inkişafa nail olmalarına (jurnal-qəzetlərə yazılmaqda, istərsə də kitab əldə etməkdə) imkan yaradırdı.

Belə bir mikitanın xidmətini hələ bir David Givişvili qeyd edib:

***"Didubedə şərabla, içki ilə alver edirdi,***
***Hamıya öz hərəkəti ilə özünü sevdirirdi.***
***Zarafatla, baməzəliklə, dilinin nitqi ilə,***
***Çoxlu ehtiyacı olanlar da onun əli ilə yaşayırdı".*** *(Bax: D.Givişvilinin "Mərhum Abraqune barədə şeir", 1885-ci il, səh. 4.*

*Bu mikitan Abraqune o Abraqunedir ki, Tiflisdə on dörd faytonla kef edirdi. O, əsil bohema idi. Onun dükanına şairlər çox hallarda toplaşırdılar. Bir dəfə onun eşşəyini "şərif" olaraq göylərə qaldırdılar. Abraquneni elə onun dükanının arğançısı şəxsi zəmində öldürmüşdür. Givişvilinin adı çəkilən kitabı bu qətldən irəli gəlmişdir).*

Qədim Tiflisin ədəbi bohemasının yaradılmasında, elə sonra, siniflərin yenidən formalaşması zamanı mikitanların özünəməxsus xidmətləri vardır. Qaraçoxeli pohemistlərin əyyaşlıq etdikləri və son quruşlarını da samikitnoda qoyduqları vaxt olub ki, bu barədə də D.Givişvilinin "Skandarnovanın paltosuna dair" şeiri vardır:

***"Bu gün də o palto padvalda tullanıb,***
***Bilirsiniz, neçəyə? Səkkiz abbası borca!***
***O kefcilin gözünə tüpürün,***
***Cibə ümid olmağı bilmir niyə?***

***Camaatı dəvət etdim, özüm etdim təkcə,***
***Yox idi pulum, paltomu soyundurdular".***

Əvəzində yuxarıda adları çəkilən fəhlə-şairlərin bu mikitanlar arasında özlərinin ardıcılları da var idi. Həmfikirləri və imkan yaradanları. Doğrudur, bu mikitanlar şair deyildilər, amma onların dükanlarında "Ğaramaniani" və başqa bu cür kitabların oxunuşunun ədəbi yarışı keçirilirdi *("Siskari" yazırdı: Bütün Gürcüstanda "Davrişiani", "Rusudaniani" və "Ğaramaniani"ni oxumadıqları mikitanxananı, kef məclisini də insan tapa bilməz" (Bax: "Siskari", 1863-cü il, səh.100).* Necə bizim yazıçıları, eləcə də gürcü teatrının odövrkü repertuarını da yaxşı tanıyırdılar. Onların lövhələrində yazılmışdır:

**Çayxana – "Samşoblo"("Vətən")**
**Qəhvəxana – "Sayat-Nova"**
**Yeməkxana – "Hamlet"**

Ola bilər ki, mən şair olaraq şərabın vurğunu olmayam və nə də zirzəmilər mənim poeziyamın arzu etdiyi yer olsun. Lakin bu təqdirdə qeyd etmək lazımdır ki, mikitanın dükanlarında odövrkü fəaliyyət göstərən fəhlələr tərəfindən "kiçik içki içmə" zamanı çoxlu sirli məsələ həll edilib və bir çox inqilabi planlar da işlənib hazırlanıb. Elə həmin mikitanlar terrorçuları saxlayırdılar, tətil edən fəhlələrə nisyə verməklə yardım edirdilər, yazıçılara güzəştli qiymətlərə nahar verirdilər *(Arçil Xvedelianinin yeməkxanasında "Ninoşvilinin yeddi qəpiklik naharı"nı yada salın)* və sair. Əvəzində fəhlələr də onların əməyini unutmurdular, xeyirxahlığa görə yüksək dəyər ödəyirdilər. Məsələn, Arçil Xvedeliani vəfat edəndə bütün odövrkü fəhlə-şairlər əks-səda verdilər. "Kvali"də, "İveriya"da, "Tsnobis purtseli"də yazılar həsr olundu *(İya Ekaladze öz "İclasda" hekayəsini "Arçil Xvedelianiyə həsr etdi (Bax. "İveriya", 1897-ci il, № 209, 210, 213).* Onun dostları "Arçilin qisməti" kitabını da buraxdılar.

Bax, çəkməçi-fəhlə-şair İ.Qarsevanişvili Arçil Xvedelianinin vəfatı barədə nə deyir:

***"Bax, ürək sarsıdıcı mənzərə,***
***Bax, onun meyiti soyuyubdur.***
***Böyük bir məqsəd-istəklə***
***Xeyirxah ürək daim döyünürdü...***
***"Vətəni məbəd" bilən adamın,***
***Və özünü daim "qurban payı" bilənin.***
***Ölkənin ağrı-acısına görə***
***Öz həyatını fitilə bükənin.***
***Xeyirxah işdə, çarəsizlərə yardım işində***
***Həmişə, çox hallarda birinci olanın,***
***Qardaşlığın yaddaşında, nümunəvi,***
***Layiqli oğul hesab olunanın".*** *(Bax: "Arçil Xvedri" kitabı, 1897, səh. 21).*

*(ardı gələn sayda)*

*Gürcü dilindən tərcümə edən:*

**Mirzə MƏMMƏDOĞLU**



AFİQ MUXTAROĞLUNUN AYAQÜSTÜ DÜŞÜNCƏLƏRİ

# İKİNCİ MƏRTƏBƏDƏN GÖRÜNƏN ƏL BOYDA DÜNYA

Səksənini çoxdan yola salmış olması saçlarının bəyazından, üzünün dərin qırışlarından bəlli olan, yetərincə uca boylu holland qadın velosipedinin üstündə baş kəsib, döyüşdən qayıdan məğrur orta əsrlər cəngavəri kimi oturub. Adamın allahı var, ömrün səksənini rahatca qatlayıb qırağa qoysa da, saçları qar bəyazına dönsə də, üzünü dərin qırışlar örtsə də gözəlliyi öləzimiş ocaq yerinin gizlədiyi qor misalı üzə vurmağındadır. Üstəgəl, bütün bunların arxasından bir doymuşluq, toxluq, görmüşlük, xanım-xatınlıq boy verməkdədir.

O, dördbucaqlının perimetri boyunca sıralanmış evlərin önündəki qarajlardan birininin qapısı qarşısında şəstlə velosipedindən enir. Yanından keçən yaşlı qonşusuyla salamlaşır və velosipedini qarajın açıq qapısından içəri salır. Zalımın qızı bir dilinin qıfılını qırıb, qonşusuyla beş kəlmə söhbət də eləmir.

Amma burada hollandların ünsiyyətcil olmasını demədən keçmək istəmirəm. Söhbətlərində səmimi olduqları qədər də, doğruluq sevəndirlər. Sənin bir yalanın illərlə davam edən münasibətlərin sonlanması üçün yetərlidir. Ünsiyyətcilliklərini üzlərindən əskik olmayan təbəssümləri təsdiq edir. Bəzən aşırı dərəcədə söhbətcilləri adamı bezdirə də bilir. Zəvzək, boşboğaz hollandlar da yetərincədir. Elə düşünməyək ki, holland insanlarının hamısı bir bezin qırağıdır və ya hamısı bir papaqdadır. Yox, hər cəmiyyətdə olduğu kimi, Niderlandda da toplum fərqli ünsürlərdən ibarətdir.

Mənim ikinci mərtəbədən həyətin görə biləcəyim hissəsində həyat əlamətləri demək olar ki, hiss olunmur. Təkəm-seyrək gözə dəyən adamlar da evlərindən çıxdıqları kimi maşınlarına minib harasa gedir və ya əksinə, maşından düşdükləriylə evlərinə girməkləri bir olur. Elə bil dallarınca düşən, onlara təpinib gözağartması verən-zad var. İlk dönəmlərdə şəhər küçələrinin adamsızlığı, adamların gözəgörünməzliyi məni xeyli təəccübləndirsə də, sonralar bunun niyə belə olduğunu anlaya bildiyimi düşünürəm. Körpələr bağçalarında, bir az böyük olanlar məktəblərində, böyüklər işlərində-güclərində, qocalar dincəlməklərində, evdə hər rahatlıq var. İsti ocağı, dolu bucağı evdə qoyub, küçədə durmağın, boş laqqırtı vurmağın nə mənası? Asudə vaxt keçirmək, hobbilərini, azarlarını öldürmək istəyənlərin də bəlli məkanları hazırdır. Küçə avaralanmaq üçün yox, harasa gedib-gəlmək üçün bir vasitə, bir məkandır.

Yaz gününün kefini çıxaran gənc ata bağçasında kiçik qızını yelləncəkdə yelləndirir. Dünya bu günəş sarısı qızcığazındır. Yelləncəkdə kəpənək kimi o tərəfə bu tərəfə uçması, bu uçuşdan aldığı ləzzətin böyüklüyünü, yerə-göyə sığmazlığını onun sınan şüşə səsinə bənzər çığırtılarından anlamaq çətinmi şeydir? Özümüz uşaq olmamışıqmı?

Bu da başqa bir gənc ata. Saqqallı gənc ata saçları çiyinlərində dəniz kimi dalğalanan kiçik oğlunu sinəsinə sıxmış halda skuterini sürməkdədir. Heç uşağın yıxılacağı, yerə düşəcəyi kimi bir qorxusu-filanı da hiss olunmur. Ata olan kəs dişini ağartmaqda, kefinin dalındadır. Dəniz dalğası saçları sazağın təsirindən yellənən əl boyda oğlancığın üzünə yayılan təbəssümsə, bu an dünyanın həm də xoşbəxtlik məkanı olduğunu sübut edir. İnsanın xoşbəxtliyi üçün nə qədər az şeylərin lazım olduğunu bu mənzərədən yaxşı nə anlada bilər ki?

Arada itini gəzdirməyə çıxaranlar gözə dəyir. Əslində itini yox, itlərini yazmam daha doğru olardı. Nədən ki, bəzilərinin iki, üç, hətta dörd itlə də çıxdığını görmək adi, sıradan bir şey. Çoxuşaqlı ailə anlayışı var ha, onu Niderlanda baxıb, – təkcə Niderland ha bu dərdin yiyəsi deyil, – çoxitli ailə kimi təqdim etmək olar. Görməmişin yığını elə bil it fərması yaradıb, südünü sağacaqlar. Yuxarıda itini gəzdirməyə çıxaranlar yazmışdım ha, o deyim də əslində burada yerinə düşmür. O üzdən ki, adamcığazlar iti gəzdirmək yerinə, onların özlərini boşaldıb yüngülləşməsi üçün bayırdadılar. Əllərində hazır tutduqları tünd yaşıl torba da itlərin arxalarında buraxdıqları pisliyi toplayıb, məhz bunun üçün qoyulmuş xüsusi konteynerlərə atılması məqsədi güdür. Sahibi gözləyir ki, it işini bitirib özünü boşaltsın, o da it qurut götürən kimi həmin pisliyi torbaya yığsın.

Niderlandın hər yerində olduğu kimi Feynendalın (hollandcası Veenendal) bu məhəlləsində də səliqə-sahman, təmizlik adamın gözünə girir. Məhəllədə maşınlar



üçün nəzərdə tutulmuş park yerlərində, demək olar ki, boş yer görünmür. Rəngarəng maşınlar bir-birindən eyni məsafədə sıralanıb. Deyərsən ki, onları xətkeşlə ölçüb düzüblər. Nə bir santimetr o tərəfə, nə bu tərəfə. Pərakəndəlik, dağınıqlıq, harda gəldilik, necə gəldilik buralara yaddır. Guya maşını bir az yanakı, bir az köndələninə saxlasan dünya dağılacaqmış? Nə bilim, vallah, bizdən fərqli olaraq bunlar da belə dərdin yiyəsidirlər.

...De, Allah amanında, özünüzü qoruyacağınız ümidiylə üç nöqtəmi qoyuram...

**Afiq MUXTAROĞLU**
Niderland Krallığı,
Veenendal

# BİR AİLƏNİN FACİƏSİ



Sənəm xalanın dörd övladı var idi: üç qız və bir oğul. Nə qədər ki, uşaqlar balaca idilər ailə öz həyatından narazı deyildi. Doğrudur, onlar kasıb dolanırdılar, lakin bu kasıblıq onların ailəsi üçün problem yaratmırdı. Sənəm xala və ömür-gün yoldaşı Arif əmi hələ cavan olduqlarına görə həyat tərzindən şikayətlənmirdilər, bacardıqları qədər fiziki işlə məşğul olurdular. Torpaq sahəsi az olsa da onlar bu torpaqdan lazımınca istifadə edirdilər. Hər mövsümdə bir neçə cür məhsul əkib-becərir, bu böyük ailəni dolandırır, heç kəsə möhtac olmurdular. Hətta ailənin kiçik övladı olan Faiqi 3-cü sinifdən müəllim yanına hazırlığa da göndərirdilər.

Ailədə uşaqlar böyüdükcə onların maddi ehtiyacları da böyüyürdü. Nə ana, nə də ata istəmirdilər ki, onların uşaqları ətrafdakı uşaqlardan geyim-keçimdə geri qalsınlar. Elə ailənin faciəsi də buradan başladı.

Böyük qıza - Vəsiləyə uzaq kənddən elçi düşdülər, yüngülvari toyla apardılar. Ata-anası Vəsilənin getdiyi ailəni yaxşı tanımırdı. Tələsik qərar vermişdilər. Heç iki il keçməmiş qızı səbəbsiz yerə bir körpəsi qucağında atası evinə qaytardılar. İki-üç ay keçmişdi ki, Sənəm xalanın ortancıl qızı Validəyə öz qohumu elçi düşdü. Baxmayaraq ki, bu ailəni yaxşı tanıyırdılar, ancaq ortancıl qızın da çox keçmədi ailə həyatı dağıldı. Oğlanları Faiq təhsildən ayrı düşdü, pis əməllərin qurbanına çevrildi.

Hər iki qızın taleyindən ailə sarsılmışdı. Qonu-qoşunun söz-söhbəti, qınağı onları təngə gətirmişdi.

Ailədə gərgin vəziyyət yaranmışdı. Sənəm xala ümidini itirmişdi, mənəvi yükün altından çıxa bilmirdi. O, tək çıxış yolunu intiharda gördü. Zəhərli bitki dərmanı içərək intihara cəhd etdi. Onu xəstəxanaya yerləşdirdilər, həkimlər nə qədər çalışsa da, əlindən gələni etsə də, əfsuslar olsun ki, Sənəm xalanı həyata qaytara bilmədilər.

Çıxış yolu heç vaxt intihar olmamalı idi. Ailə qızlarını evləndirərkən yüz ölçüb bir biçməli idi. Bundan əlavə, qohum-qonşu bu ailəyə dəstək olmaq əvəzinə onların qeybətini elədilər, qınadılar. Bütün bu olanlar da faciə ilə nəticələndi.

Üst-üstə yaşanan qara günlər Arif əmiyə böyük zərbə vurdu. Dörd balası ilə tək başına qalan Arif əmi nə edəcəyini bilmirdi, çıxılmaz vəziyyətdə qalmışdı. Arif əmi qızlarının taleyinəmi yansın, yoxsa canına qəsd edən ömürgün yoldaşınamı? Sanki yer-göy, dağdaş bu ailənin halına ağlayırdı. Ailədəki sarsıdıcı vəziyyətə baxmayaraq Arif əminin qızları güclü olmağa çalışır, atalarına mənəvi dəstək olurlar.

Həyat mübarizədir, bu mübarizədən hər şeyə rəğmən qalib çıxmaq lazımdır. Bir dəfə atılan səhv addım bir daha təkrar olmamalıdır. Çünki həyat davam edir.

**Dilarə TƏHMƏZOVA**
*İlia Dövlət Universitetinin tələbəsi*

İCTİMAİ QƏZET yeniyolqazeti@gmail.com “იენი იოლი” საზოგადოებრივი გაზეთი HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur. 30 İYUN 2021-Cİ İL №012 (135)

## 2021-Cİ İLİN MİLLİ MÜƏLLİM MÜKAFATININ ONLUĞUNDA MARNEULİLİ MÜƏLLİM DƏ VAR



**2021-ci ilin Milli Müəllim Mükafatının onluğu açıqlanıb. Seçilmiş 10 müəllimdən avqust ayında 5 müəllim finala çıxacaq. Oktyabrda isə 1 müəllim mükafatın qalibi seçiləcək.**

***Milli Müəllim Mükafatının onluğunda yer alan müəllimlər:***

**1. Sopo Baçılava** – Tbilisi “Opiza” özəl məktəbinin vətəndaş təhsili müəllimi;

**2. Lamara Bolkvadze – Marneuli bələdiyyəsində Maradisi və Qasımlı məktəblərində gürcü dili və ədəbiyyatı müəllimi;**

**3. Qita Tvalabeişvili** – Tbilisi 168 saylı məktəbin ibtidai sinif müəllimi;

**4. Zeinab Kakalaşvili** – Telavi 5 saylı ictimai məktəbin mən və cəmiyyət və vətəndaş təhsili müəllimi.

**5. Xatuna Razmadze** – Tbilisi Müqəddəs Giorgi adına beynəlxalq məktəbin riyaziyyat müəllimi;

**6. Ketevan Sepiaşvili** – Tbilisi 10 saylı ictimai məktəbin fizika müəllimi;

**7. Giorgi Terunaşvili** – Mestiya bələdiyəsinin Qali ictimai məktəbinin tarix, coğrafiya, vətəndaş təhsili, bizim Gürcüstan və gürcü dili müəllimi.

**8. Aza Xanqoşvili** – Duisi kənd ictimai məktəbinin fizika, təbiətşünaslıq, sahibkarlığın əsasları və idman müəllimi.

**9. Marina Xaritonaşvili** – Tbilisi Servantes adına gimnaziya, Aya-Cessi məktəbinin coğrafiya və təbiətşünaslıq müəllimi.

**10. Maka Xeladze** – Tbilisi Müqəddəs Giorgi adına beynəlxalq məktəbin ibtidai sinif müəllimi.

***Milli Müəllim Mükafatı Təhsil Koalisiyası, Müəllimlərin Peşəkar İnkişafı üzrə Milli Mərkəz və Gürcüstanın Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyi arasında bağlanmış memorandum əsasında 2017-ci ilin 13 may tarixindən həyata keçirilir. Qalib gələn müəllimə 10 min lari pul mükafatı verilir.***

*Mənbə: etaloni.ge*

## ASİYA İNKİŞAF BANKI “GÜRCÜSTAN DƏMİR YOLLARI”NA 20 MİLYON DOLLAR İNVESTİSİYA QOYUB

Asiya İnkişaf Bankı (ADB) “Gürcüstan dəmir yolları” SC-nin “Yaşıl istiqraz”larına 20 milyon ABŞ dolları investisiya qoyub. Bu barədə Bankın açıqlamasında bildirilir.

Məlumata görə, həmin vəsait dəmir yolu xətlərinin yaxşılaşdırılması məqsədilə buraxılmış avrobondların təkrar maliyyələşdirilməsi üçün istifadə olunacaq.

ADB-in İnfrastrukturun maliyyələşməsi, Cənubi, Mərkəzi və Qərbi Asiyada Özəl sektorda əməliyyatlar departamentinin direktoru Şantanu Çakraborti bildirib ki, Gürcüstan Avropa və Asiyanın kəsişməsində yerləşir, vacib ticarət və nəqliyyat dəhlizi rolunu oynayır.

““Yaşıl istiqraz”ların buraxılması ölkənin dəmir yolu şəbəkəsinin modernləşdirilməsinə imkan verəcək. Şəbəkə ölkə iqtisadiyyatı və region üçün mühüm əhəmiyyət kəsb edir. Yolların müasirləşdirilməsi daşınmaları daha sürətli və təhlükəsiz edəcək”, - deyə Ş.Çakraborti bildirib.




## MSK-NIN SƏDRİ İSTEFA VERİB



Gürcüstanın Mərkəzi Seçki Komissiyasının sədri Tamar Jvania vəzifəsini tərk edib.

O, bu barədə bəyanat yayıb.

T.Jvania səlahiyyət müddətinin uzadılmamasını istəyib.

Onun sözlərinə görə, bu, siyasi partiyalara yeni sədri yenilənmiş Seçki Məcəlləsinə uyğun olaraq seçməyə imkan verəcək.

Qeyd edək ki, T.Jvania MSK-ya 2013-cü ildən sədrlik edib. Ötənilki parlament seçkilərindən sonra onun istefa verməsi müxalifətin əsas tələblərindən biri olub.

## TAM PEYVƏNDLƏNMİŞ TURİSTLƏR GÜRCÜSTANDA TEST VERMƏLİ OLACAQLAR



“Gürcüstana səfər edən turistlərin koronavirusa qarşı vaksinin hər iki dozasını almalarına baxmayaraq, ölkə ərazisində testdən keçməsi tövsiyə deyil, tənzimləmə olmalıdır”. Bunu səhiyyə naziri Ekaterine Tikaradze deyib.

Onun sözlərinə görə, turistlərdən Gürcüstanda test olunması tələb olunmalıdır.

“Bu halda saxta sənədlərin təqdim olunmaması ilə bağlı daha çox zəmanətimiz olacaq. Turistlərin ölkədə hərəkəti vətəndaşlarımız üçün təhlükəsiz olmalıdır”, - deyə nazir bildirib.

Qeyd edək ki, Gürcüstan ərazisinə hava və quru yolla daxil olan peyvənddən keçən və keçməyən əcnəbilər son 72 saat ərzində aparılan PCR testin mənfi nəticəsini təsdiqləyən arayış təqdim etməlidirlər.

## GÜRCÜSTAN GƏLƏN İLDƏN PUA-LARIN İSTEHSALINA BAŞLAYACAQ



“Gürcüstan gələn ildən etibarən beynəlxalq tərəfdaşlarla birgə pilotsuz uçuş aparatları istehsal etməyi planlaşdırır”. Bunu ölkənin baş naziri İrakli Qaribaşvili deyib.

O, PUA-ların Müdafiə Nazirliyinin nəzdindəki “Delta” hərbi elmi-texniki mərkəzində yığılacağını bildirib.

Hökumət başçısı həmçinin qeyd edib ki, yaxın gələcəkdə mərkəzdə İsrail şirkəti ilə birgə M4 tipli avtomatların istehsalına da başlanılacaq.

## GÜRCÜSTANIN TURİZMDƏN GƏLİRİ ARTIB

Milli Bankın analitik hesabatına görə, bu ilin may ayında Gürcüstan turizmdən 73,8 milyon ABŞ dolları həcmində gəlir əldə edib. Nəşrə əsasən, gəlirdə illik müqayisədə 8,1 dəfə artım qeydə alınıb.

Yanvar-may aylarında isə turizm sektoru Gürcüstan iqtisadiyyatına 177,3 milyon dollar gəlir gətirib.

Ötən ay Gürcüstan 96,5 min nəfəri turist olmaqla 112,7 min beynəlxalq ziyarətçi qəbul edib. Ölkəyə səfər edənlərin sayı ötən ilin eyni dövrünə nisbətdə 3,1 dəfə artıb.

Təsisçi:
“Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı”

Redaktor: Azər MUSAOĞLU
Yayım direktoru: Hacı BƏKİROĞLU
Qrafik dizayn: Elsevər ƏHMƏDOV

ÜNVAN: Qardabani şəh., Kolxoz küç. 4
TEL: (+995) 555 96 18 68
599 54 12 92
EMAİL: yeniyolqazeti@gmail.com

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.